# “Gəlin gedək Qarabağa”



**Yazıçı-jurnalist, çağdaş bədii publisistikamızın tanınmış nümayəndəsi Ziyəddin Sultanovun imzası geniş oxuculara və ədəbi ictimaiyyətə daha çox Qarabağ mövzusunun ardıcıl yazarı kimi məlumdur. 30 ildən artıq müddətdə ”Xalq qəzeti”nin Qarabağ bölgəsində müxbiri işləyən Əməkdar jurnalistin sənədli-bədii yaradıcılığında Dağlıq Qarabağ münaqişəsinin ardıcıl xronikası və əhatəli mənzərəsi aparıcı yer tutur.**

Müəllifin indiyədək işıq üzü görmüş ”Məni də sevən var”, ”Ömür keçdi, gün keçdi”, ”Qarabağ gündəliyi”, ”Qarabağın qara günləri”, ”Xocalı faciəsi”, ”Burdan bir atlı keçdi”, ”Kəklik”, ”Bir qonağam bu dünyada”, ”Xatırla məni”, ”Ağdərədən gələn var”, ”Əsirlər, itkilər, girovlar”, ”Qarabağ müharibəsi: faktlar, hadisələr, düşüncələr”, ”Ürək dözmür ayrılığa” və s. kitablarının da əsas mövzusu Qarabağ əhalisinin üç onillikdən bəri üzləşdiyi bəlalar, erməni quldurlarının törərdikləri faciə və fəlakətlər, eləcə də cəbhə bölgəsində yaşayan soydaşlarımızın işıqlı arzu və əməlləridir.

Yazıçı-jurnalistin oxuculara təqdim etdiyi sonuncu kitabın - ”Gəlin gedək Qarabağa” toplusunun ədəbi-mədəni mühitdə Qarabağ müharibəsinə həsr edilmiş çox qiymətli bədii publisistika nümunəsi kimi qarşılanması heç də təsadüfi deyil. Vətənimizin qanı axan yarası Qarabağda illərdən bəri baş vermiş faciəli hadisələr, döyüş əməliyyatları, qələbələrimiz, itkilər və s. cəbhəçi jurnalistin gündəlik şəklind qələmə aldığı (illər keçəndən sonra isə ciddi tarixi qaynağa çevrilmiş) irili-xırdalı yazılarda əksini tapmışdır. Bu baxımdan sənədli-xronikal əsər təsiri bağışlayan bu toplunun tarixi və elmi əhəmiyyəti illər keçdikcə daha da artacaqdır.

Qeyrətli vətən övladlarının ərazilərimizin bütövlüyü, azadlıq, istiqlaliyyət uğrunda mübarizəyə qoşulmaları, düşmənlərin torpaqlarımızı işğal etməsi, döyüşlərdə qəhrəmancasına həlak olan oğul və qızlarımızınyurd sevgisi, el-obasından didərgin düşən soydaşlarımızın ürək göynədən taleyi ”Gəlin gedək Qarabağa” kitabında toplanmış yazıların başlıca mövzusudur. Bu sənədli epizodlar ağrılı-acılı günlərimizin yaddaş səlnaməsi kimi bu gün olduğu kimi, gələcəkdə də tədqiqatçılara, şairlərə, yazıçılara bir çox mövzular verəcəkdir.

Gündəlik qeydləri biçimində ərsəyə gəlmiş ”Gəlin gedək Qarabağa” kitabında toplanmış materialları nə hekayə, nə povest, nə də roman adlandırmaq olar. Bu kitabı Qarabağ müharibəsi hekayətlərindən ibarət ”faciələr romanı” da hesab etmək mümkündür. Müəllif Qarabağ mövzusunda yaranacaq bədii əsərlərə sujetlər verəcək yeni bir ədəbi-publisistik forma (”Cəbhə xatirələri və gündəklikləri”) seçmişdir ki, bu da toplunun yeniliyini, bədiiliyini, tarixiliyini və müasirliyini şərtləndirir.

Hadisələri əvvəldən axıra qədər xronoloji ardıcıllıqla verən müəllif təkcə özünün və el obasının deyil, bütövlükdə Azərbaycan xalqının ”Qarabağ ağrısı”nı ifadə etmək və erməni vəhşiliklərini daha geniş dairəyə çatdırmaq missiyasını yerinə yetirməyə çalışıb. Gündəliyin epizodlarının bir çoxunda yazıçı-jurnalistin yaxından tanıdığı, dost olduğu insanların taleyi, üzləşdikləri müsibətlər əks olunub.

Gündəliyin ilk fraqmenti belə adlanır: ”13 fevral 1988-ci il”. Bu, Dağlıq Qarabağ münaqişəsinin Xankəndində start götürdüyü gün, tezliklə qanlı müharibəyə aparıb çıxaran qarşıdurmaya qapı açan məqamdır. Müəllifin şahidi olduğu sonrakı hadisələr Dağlıq Qarabağ və ətraf rayonlarda baş verən faciələrin sistemli mənzərəsini yaratmaqla bu bəşəri cinayətin təşkilatçılarının və icraçılarının qanlı əməllərini tarixin yaddaşına həkk edib.

Materiallarda adı çəkilən çaylarımızın, dağlarımızın, bulaqlarımızın, yaylaqlarımızın, rayon və şəhərlərimizin yaratdığı ümumi təəssürat bu yerlərin xalqımızın qədim ərazisi olduğunu bir daha təsdiqləyir, düşmənin işğalçılıq siyasətinin mahiyyətini dərindən aşkarlamağa imkan verir. ”Yelli gədik”, ”Ala göllər”, ”Sarı yer yaylağı”, ”Zülfüqarlı kəndi”, ”Zoğallı körpü”, ”Bağlı pəyə”, ”Cərəktar”, ”Orta kənd”, ”Rus bulağı”, ”Ağdaban kəndi”, ”Meşəli”, ”Sırxavənd”, ”Cəmilli”, ”Umudlu”, ”İsti su”, ”Taxta düzü”, ”Gəlin qayası”, ”Ceyran bulağı”, ”Dəli dağ”, ”Nəsir düzü”, ”Zabux kəndi”, ”Qiblə bulağı”, ”Qoşabulaq”, ”Mənəş”, ”Buzluq”, ”Qozlu körpü” və s. toponimlərimizin hər biri düşməni ittiham edən tarixlə möhürlənmiş bir sənəddir.

Müəllif Qarabağımızın hər bir kəndi, dağı, dərəsi, çayı, bulağı, elat camaatının adət-ənənələri haqqında təsirli qeydləri ilə oxucunun yurdsevərlik duyğusunu təkrar-təkrar alovlandırır: ”Elat dağlara qalxardı. Buz bulaqların başında alaçıqlar qurulardı. İstisuda, Turşusuda, Dəlidağda, Gəlin qayasında, Minkənddə insan əlindən tərpənmək olmazdı. Saz havaları, el mahnıları Tərtərin, Həkərinin coşğun sularına qarışıb, başıqarlı dağlara yayılardı. Çoban qardaş bərəkətli sürüləri dağların döşünə yayardı. Alacığın qabağında tərəkəmə qadınları nehrə çalxayar, motal tutar, payıza, qışa hazırlıq görərdilər”. Yaxud: ”Ensiz yol sıx meşələrdən keçirdi. Sərt döngələrin birində at ayağını yerə dirədi, qulaqlarını şəkləyib bərkdən kişnədi. Maarif əvvəlcə heç nə başa düşmədi, hirslə cilovu çəkdi. Ancaq kəhər yerindən tərpənmədi. Elə bu zaman yaxın məsafədən dalbadal atəş açıldı...”



Belə həyat lövhələrini insanların ömür yolunu, onların mənəvi dünyalarını, sevgilərini, dərdlərini, ağrılarını, psixologiyalarını, xarakterlərini bitkin əks etdirməkdə tamamlayıcı vasitəsinə çevirən müəllif bununla kitabda Qarabağın və onun qorxubilməz insanlarının mükəmməl obrazını yaratmağa nail olmuşdur. ”Havadan qar ətri gəlir”, ”Solğun qış günəşi buludların arasından görünməz oldu”, ”Dağlar dilə gəlir”, ”Bahar suları coşğun nəğmələr oxuyur, torpaq sinəsinə sərdiyi yaşıl xalı ilə minbir çiçəklə, güllə dil açıb danışır” kimi canlı lövhə yaradan ifadə və təşbehlər cənnət Qarabağı cəhənnəmə döndərənlərin cəllad xislətini açmaq üçün təbii dekorasiya və estetik fon yaradır.

”Duman gəl get bu dağlardan”, ”Ay doğdu qəlbiləndi”, ”Kəhər atın belində”, ”Bu köç hara gedir belə”, ”Çay bərəni aşmamış” kimi xalq etnoqrafiyasında və el düşüncəsində qəliblənmiş ifadələr də hadisə və epizodlara Qarabağın mənəvi aləminin cazibə və şirinliyini qatır. Uca dağlar, yalçın qayalar, diş göynədən buz bulaqlar, al-əlvan xalılara bürünmüş göy yaylaqlar fonunda baş verən faciələr soydaşlarımızın qəlbini göynədir, düşmənə nifrət hissini qat-qat artırır.

Ziyəddin Sultanovun publisistik yaradıcılığında ucalığın, aliliyin timsalı kimi söz açılan, milli bədii təfəkkürdə xalqımızın arxası, dayağı sayılan, elin şad günlərində sinəsində çal-çağır, şənlik, toy məclisləri qurulan, çətin anlarda ”qüdrətdən səngərli, qalalı” dağların faciəsi bu kitabda onun özü qədər böyük və ağır görünür. Xatirə və gündəlik səhifələrində dağlar təhlükənin, ağrının, itkinin, həsrətin obrazı kimi göz önündə canlanır: ”Dağlara qış gəlir”, ”Dağlarda həyəcanlı vəziyyət”, ”Sarıyerdə hadisə”, ”Dağlarda faciə”, ”Dağlar da narahatdır”, ”Dağlarda döyüş”, ”Üzü bəri baxan dağlar” və s. Ziyəddin Sultanovun bu əsərində dağların metaforik anlamını yaradan digər bir çox nümunələrə də rast gəlirik.

Kitabdakı ”Qalx ayağa Azərbaycan əsgəri” adlı son yazıda müəllifin düşmənə nifrət hissi aşıb-daşır. 30 ilıə yaxın müddətdə ön xətdə yaşayıb-yaradan cəbhə jurnalisti doğma Qarabağımızı, dağlarımızı, işğal altında olan torpaqlarımızın yağı tapdağından qurtulması üçün Vətən oğullarını daxilən səfərbər olmağa çağırır. ”Öz oxucularına ”Gəlin gedək Qasrabağa” nidası ilə üz tutan Ziyəddin Sultanov bizi Qarbağ itkilərinin eniş-yoxuşlarından Qarabağlı günlərimizin astanasınagətib çıxarır.

**Vaqif Allahverdiyev**